# 2016-cı ilin daha üç Nobel mükafatı laureatının adı açıqlandı




**Oruc MUSTAFAYEV,** *"Azərbaycan müəllimi"*

Oktyabrın 10-da İsveç Kral Elmlər Akademiyası 2016-cı ilin *iqtisadiyyat* elmləri sahəsində Nobel mükafatı laureatlarının adlarını elan edib. Bu il mükafata "müqavilələr nəzəriyyəsinə verdikləri töhfələrə görə" Harvard Universitetinin professoru Oliver Xart və Massaçusets Texnologiya İnstitutunun professoru Benq Holmstrom layiq göülüblər. İsveç Kral Akademiyası bəyan edib ki, O.Xart və B.Holmstromun kəşfi real həyatda müxtəlif qurumlar arasında müqavilələrin necə bağlandığını başa düşməyə kömək edəcək. Akademiya qeyd edir ki, müasir iqtisadiyyatı çoxsaylı iqtisadi müqavilələr birləşdirir. Məsələn, müqavilələri öz aralarında səhmdar cəmiyyətlərinin səhmdarları və onun rəhbərləri, sığorta şirkətləri və avtomobil sahibləri bağlayır. Bu cür münasibətlərdə çox vaxt maraqların münaqişəsi baş verir. Buna görə də müqavilələrin düzgün işlənib hazırlanması olduqca vacibdir ki, bütün müqavilə tərəfləri razı qalsınlar. Alimlər bu cür mürəkkəb münasibətləri təhlil etməyə imkan verən nəzəriyyəni işləyib hazırlayıblar. Bu nəzəriyyə real müqavilələrin bağlanması zamanı üzə çıxa bilən potensial problemləri başa düşməyə imkan verir. Akademiya bildirb ki, alimlərin elmi işləri müqavilələr nəzəriyyəsi çərçivəsində tədqiqatların aparılmasına yol açıb.

Fin iqtisadçısı Benq Holmstrom hələ 1970-ci illərin sonlarında "məlumatlılıq prinsipi"ni hazırlayıb, bu prinsipə əsasən, kompaniya rəhbərliyinin əməkhaqqısı onun fəaliyyətinin göstəriciləri barədə informasiyalardan asılı olmalıdır. İngilis iqtisadçısı Oliver Hart isə natamam müqavilə nəzəriyyəsini işləyib hazırlayıb. O, öz tədqiqat işində buna əsaslanıb ki, müqavilədə bütün mümkün olan hadisələri razılaşdırmaq olmaz. Alim müqaviləni imzalayan tərəflərdən hansının qərar qəbul etməli olduğunu müəyyənləşdirməyə çalışırdı. Qeyd edək ki, iqtisadiyyat üzrə Nobel mükafatı iqtisad elmləri sahəsində ən nüfuzlu mükafatdır. 1968-cu ildə İsveç Bankının (Riksbank) 300 illiyi münasibətilə təsis olunmuş bu mükafat ilk dəfə 1969-cu ildə verilib. Mükafatın məbləği 8 milyon İsveç kronudur (924 min ABŞ dolları).

***

Oktyabrın 13-də İsveç Kral Akademiyası 2016-cı il üzrə *ədəbiyyat* sahəsində Nobel mükafatı laureatının adını açıqlayıb. Komitənin qərarına əsasən, mükafata "Böyük Amerika musiqi ənənəsi çərçivəsində yeni poetik dilin yaradılmasına görə" amerikalı yazıçı Bob Dilan layiq görülüb.

## İqtisadiyyat üzrə



Oliver Hart (Oliver Hart) 1948-ci il oktyabrın 9-da Böyük Britaniyada, London şəhərində anadan olub. 1969-cu ildə Kembric Universitetinin Kral Kollecini bakalavr səviyyəsində bitirib. 1972-ci ildə Uorik Universitetində magistr, 1974-cü ildə Prinston Universitetində PhD dərəcəsi üzrə təhsil alıb. 1974-1984-cü illərdə əvvəlcə Kembric Universitetinin Çörçil Kollecində, daha sonra London İqtisadiyyat Məktəbində çalışıb. 1984-cü ildə ABŞ-a köçən alim əvvəlcə Massaçusets Texnologiya İnstitutunda, daha sonra Harvard Universitetində (1993-cü ildən) müəllimlik edib. 2000-2003-cü illərdə Harvard Universitetinin iqtisadiyyat fakültəsinə rəhbərlik edib. Onun tədqiqatları müqavilələr, firmalar nəzəriyyələrinə, korporativ maliyyə, hüququn iqtisadi təhlili məsələlərinə həsr olunub. O.Hart Amerika İncəsənət və Elmlər Akademiyasının, İqtisadçılar Cəmiyyətinin, Britaniya Akademiyasının, Amerika Maliyyəçilər Assosiasiyasının, Milli Elmlər Akademiyasının üzvüdür. Alim Amerika İqtisadçılar və Hüquqşünaslar Assosiasiyasının prezidenti, İqtisadçılar Assosiasiyasının vitse-prezidenti olub.



Benq Holmstrom (Bengt Robert Holmstrom) 1949-cu il aprelin 18-də Finlandiyada, Helsinki şəhərində anadan olub. 1972-ci ildə Helsinki Universitetində bakalavr, 1975-ci ildə Stenford Universitetində magistr təhsilini başa vurub. 1978-ci ildə Stenford Universitetində doktorluq elmi işini müdafiə edib. 1978-1979-cu illərdə İsveç İqtisadiyyat Məktəbində müəllimlik edib. 1980-1982-ci illərdə Şimal-Qərb Universitetində (ABŞ) professor koməkçisi, assosiativ professor vəzifələrində çalışıb. 1983-1994-cü illərdə Yel Universitetində tamhüquqlu iqtisadiyyat professoru kimi fəaliyyət göstərib. 1985-1994-cü illərdə Yel Universitetinin Ali Menecment Məktəbində Edvin C.Beyneke adına iqtisadiyyat və idarəetmə, iqtisadiyyat və menecment kafedralarının, 1997-ci ildən isə Massaçusets Texnologiya İnstitutunun Pol Samuel adına iqtisadiyyat kafedrasının, MGT Menecment Məktəbinin professoru olub. 2003-2006-cı illərdə Massaçusets Texnologiya İnstitutunun iqtisadiyyat kafedrasına başçılıq edib. "Kuusakoski Ltd", "Prospectus", "Nokia Corporation" kimi şirkətlərin direktorlar şurasında təmsil olunub. 2005-ci ildən "Fin işgüzar və siyasi forumu"nun üzvüdür.

## Ədəbiyyat üzrə



Bob Dilan (Bob Dylan) 1941-ci il mayın 24-də Amerikanın Minnesota ştatının Dulut şəhərində kiçik ticarətçi ailəsində anadan olub. 1969-cu ildə Minnesota Universitetinə daxil olub. Yazıçı, rəssam və aktyor, müğənni və əla gitara ustası olan B.Dilan son 50 ildə rok-musiqinin əvəzolunmaz aparıcı fiquru kimi tanınıb. Onun "Blowin in the Wind" və "The Times They Are a- Changin" kimi bir çox mahnıları Amerikada vətəndaş azadlıqları və müharibə əleyhinə hərəkatın himninə çevrilib. Rolling Stone jurnalının sorğusuna əsasən B. Dilan "The Beatles"-dən sonra musiqi tarixində ikinci ən məşhur müğənnidir. Əsasən folk, folk-rok, kantri-rok, xristian roku, son zamanlara qədər isə rok janrında əsərlər yaradan laureat çoxsaylı təxəllüslər daşıyır. Müğənnı 35 albom buraxıb. 7 dəfə "Qremmi" mükafatına layiq görülüb. "Vunderkindlər" filmi üçün yazdığı Things Have Chaged mahnısına görə "Oskar" və "Qızıl qlobus" mükafatları alıb.

10 yaşında ilk şeirini yazan B.Dilan tərcümeyi -halında ana tərəfdən nənəsinin Türkiyədən olduğunu yazıb.